Zəlimxan Yaqub

# "Ün"

## (poemadan parça)

## İsa Muğannanın əziz xatirəsinə

Unudulmaz yazıçımız İsa Muğanna haqqa qovuşandan sonra onu - ustadımı, müəllimimi bir neçə dəfə yuxularda gördüm. Görüşlərimizin birində dedi: "Bilirəm, məni yaxşı oxumusan. Ancaq sənə tam aydınlığı ilə çatmayan çox mətləblər var. Qaldırdığım problemlərə, toxunduğum məsələlərə yenidən güzgü tutmağa, Saf Ağlara, Odərlərə cəmiyyətdəki təhriflərə aydınlıq gətirməyə böyük ehtiyac var. Hər şeyi təzədən başla, məni yenidən oxu, ağlımın, idrakımın, təfəkkürümün süzgəcindən keçən nə varsa, hamısını ürəyindən keçir. Mənim yaradıcılığım sağlığımda mən istəyən kimi açılmadı. İnanıram ki, onu sizlər açacaqsınız. Vuruşun təhriflərlə, Saf Ağlar, Odərlər dünyanın naqis işlərini düzəltmək üçün bizə hava, su kimi gərək olacaq. Mən yazdığımı yazmışam, dediyimi demişəm. Demədiyim çox şeyləri də ürəyimdə o dünyaya - inandığım dünyaya aparmışam.

Son söz Odər bəşəriyyətinin, uca hökmdarın - Ey Sarın, Saf Ağların olmalıdır.

Mən ölməmişəm! Öz fikir gəmimdə yol gedir, dünyaya, dünyama və sizlərə baxıram".




### SAF AĞ ELMİ

Sənin üzündəki nur
Saf Ağ elmiydi, ustad.
Sənin gözündəki od
Saf Ağ elmiydi, ustad.
Sənin saçın-saqqalın
Saf Ağ elmiydi, ustad.
Sənin kefin-əhvalın
Saf Ağ elmiydi, ustad.
Səni yuxularımda
Həyatda olduğutək,
diri və duru gördüm.
Qaynar baxışlarında
Saf Ağ elmindən gələn
tükənməz nuru gördüm.
Dilindəki həqiqət,
Odər həqiqətiydi.
Qəlbindəki məhəbbət
Odər məhəbbətiydi.
Dillərin bir diliydi,
dilin Odər diliydi.
Başdan-başa müəmma,
Sehr qoxuyan kişi.
"Tövrat"ı, "İncil"i də,
Quranı "Gur ün" kimi,
Təzə gözlə, baxışla,
duyan, oxuyan kişi.
Sən ağ görmək istədin,
bu düzü, bu dünyanı.
Silahlardan aralı,
Günahlardan aralı,
Allahlardan aralı,
Bağı "Boq" edənlərdən,
tamahlardan aralı.
Şəmsəddin Eldəgiz də,
Nizami də, Afaq da,
"Sirlər xəzinəsi" də
Saf Ağ elmindən gəlir.
Nəimi, Nəsimi də
Saf Ağ elmindən gəlir.
Nalənin naləsi də,
Nalənin səsindəki
Səsin şəlaləsi də
Saf Ağ elmindən gəlir.
Göyçədə Ələsgərin
Sazında dil-dil ötən
Ölümsüz duyğular da,
Dünyanı saflaşdıran,
Duru-duru sular da
Saf Ağ elmindən gəlir.
"Gəl ay şeşbayi-bəhrim,
Qalmadı təhərim, təhrim",
Boş-boşuna demirdi,
Dərəçiçəkli Alı.
Saf Ağdan güc alırdı,
onun eşqi-xəyalı.
"Ruhani" havasının
Hər keçidi, hər xalı,
Saf Ağ elmindən gəlir.
Sazına vurulduğun,
Sözünə vurulduğun,
Özünə vurulduğun,
Borçalı Kamandarın
Səsi, ünü, laylası
Saf Ağ elmindən gəlir.
Doqquz oğlu, övladı,
bir-bir gülldən keçən,
İsa, Musa babanın
İsahaq, Musahəqtək,
Anadilə çevrilib
tüstülənən ahı da,
Yazıq Taftı qarının
Açılmaz sabahı da
Saf Ağ elmindən gəlir.
Gümrünün tütəyində
alovlanan nəfəs də,
Tapdığın sinəsindən
qopaq o qəmli səs də,
Çayın hayqırtısı da,
selin gurlaması da,
Sudüşən çəmənində
Şehin parlaması da,
Saf Ağ elmindən gəlir.
Çürük aşığın qəmi
Yandırırsa aləmi,
O nalə, o göz yaşı
Saf Ağ elmindən gəlir.
Kor olan haqqı görməz,
Kar olan ün eşitməz.
Saf Ağ elmində nə var,
həqiqətin işığı,
Yer üzünün sahmanı,
dünyanın yaraşığı.
Saf Ağ elmi deyilən,
Ruhun, hissin, xəyalın
coşqulu bir dəmidi.
Fikrin qanadlarında
Uzaq planetlərə
uçub gedən gəmidi.
Süleyman peyğəmbərin
Uçan xalçası tək
həqiqət aləmidir.
Saf Ağ elmi deyir ki,
Cahilliyə nöqtə qoy,
Cəhaləti məhv eylə.
İnsanlar arasında
Qanlı düşmənçiliyi,
Ədavəti məhv eylə.
"Fəzli-həq"" olsun ancaq
Ən ulu memarımız,
Saflıq olsun barımız.
Vaxtında öz elminə,
Sahib çıxsaydı bəşər,
Gəlməzdi yer üzünə
nə bir fitnə, nə bir şər.
Dağlara duman gəldi,
şər gəldi, yaman gəldi.
Elm getdi işinə,
Elmsiz zaman gəldi.
Saf Ağ elmindən ayrı
Göyə çıxar ahımız.
Üstündən çaylar axsa,
yuyulmaz günahımız.
Saf Ağ elmi deyir ki,
Öz işini halal gör,
Öz işini təmiz tut,
Can gəldi-gedəridi,
elmi candan əziz tut.
Sabahımız vədəsində açılmaz,
Gözləyərik, gedənimiz gec gələr.
"Ənəlhəqqin" səsi, ünü çıxmasa,
Əyri düzə, şər xeyirə güc gələr.

Şər evini yerli-dibli yıxmasan,
Məhəbbətin əllərini sıxmasan,
Öz elminə özün sahib çıxmasan,
Elm sənlə əyri düşər, kəc gələr.

Düz baxmasan həqiqətin gözünə,
Əyri baxsan doğrusuna, düzünə,
Haramlardan bu dünyanın üzünə,
Gör nə qədər oğraş gələr, bic gələr.

### İSADAN MUĞANNAYA

Dərk etməz bu hikməti
İdrakdan uzaq olan,
Xisləti şikəst olan
niyyəti çolaq olan,
Səni dərk etmək üçün
ürək lazımdı, ürək,
beyin lazımdı, beyin.



O beyni, o ürəyi
Gedim kimdən soruşum,
hardan alım, siz deyin?
Səni bir də oxudum,
Səni min də oxudum,
Dini səndə oxudum,
Səni dində oxudum.
Gördüm sənin dinində
Haqdan gələn ün var, ün.
Sənin bayramın olub
ün göylərdən gələn gün.

Göylərə açıq deyil
hər insanın ürəyi,
Hər adamın beyninə
İstədiyi ün gəlməz.

Ucalıqla nə işi
yerdə sürünənlərin,
Hər sinənin alovu
Günəş ilə tən gəlməz.

Qışın qarı yağmasa,
dünya bürünməz ağa,
Yazın gülü açmasa,
nahaq çıxırsan dağa.
Qəlbin hazır olmasa
səsi qarşılamağa,
İllərlə gözləyərsən,
gözlədiyin gün gəlməz.

O gün hansı gün idi,
saat hansı saatdı,
Bir kişinin adına
ün göylərdən enirdi.
Döşəmədən, tavandan,
bağlı qapıdan gələn
İşarətdi, nəfəsdi,
pıçıltıdı, hənirdi.

Fikrə, eşqə, xəyala
nə hasar var, nə barı,
Harda olursa olsun,
tapar sevdiyi yarı.
Ürək qəbul edirdi
mübarək duyğuları.
Beyindəki işıqlar
alışırdı, sönürdü.

Pıçıltılar deyirdi
bizi bir göndərən var,
Bütün çətinliklərə
sinəsini gərən var.
Hər eşqin meyvəsini
dərdirən var, dərən var,
İsa o gün çevrilib
Muğannaya dönürdü.

Tarixdən danışırdı,
keçmişdən danışırdı,
Zahir-batin nə varsa,
o açırdı sirləri.
Dümağ varaqlar üstə
düzürdü muncuq kimi,
Ağlımıza gəlməyən
ağıllı fikirləri.

Dar otaq böyüyürdü
sonsuz kainat qədər,
Ay da, Yer də, Günəş də
bir qula çevrilirdi,
Nizami dillənəndə
söz bir aləm olurdu.

O bir məclis qururdu
alimli, üləmalı,
Qələmi yas tuturdu
vaxtsız gedən canlara.
Yanırdı, yaxılırdı
dünyasını dəyişən
Filosof Heydərlərə,
doktor Nərimanlara.